*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 31 iyul 2019-cu il № 59 (2376) Qiyməti 30 qəpik


*Ön xətdən reportaj*

# O yerlərə qayıdışa az qalıb



*Adi günlərdən biridi. Bu günün adiliyində bir qeyri-adilik də hiss edirəm - Azərbaycan əsgəri ilə görüşə gedirik. Bu gün nədənsə ürəyim köksümə sığmır, düşüncələrim məni Şuşaya, Xankəndinə, Kəlbəcərə, Laçına... aparır. Yolboyu Azərbaycan əsgəri ilə söhbətimin detallarını düşünürəm. Hər dəfə olduğu kimi yenə Vətəndən danışacağıq, Aprel döyüşlərini, Günnüt zəfərini xatırlayacağıq. Oğullarımızın həmin döyüşlərdə göstərdiyi qəhrəmanlıqlardan söhbət açacağıq, şəhidlərimizi yad edəcəyik.*

Hərbi hissəyə çatırıq.

Hərbi hissənin zabiti Seymur Abıyev bildirir ki, tabeliyində xidmət edənlərin mənəvi-psixoloji ruhu yüksəkdir. "Onlar günün nizam qaydalarına uyğun olaraq ictimai-siyasi, atəş, taktiki, mühəndis və fiziki hazırlıqdan məşğələlər keçirlər. Nəzəri biliklər mütləq praktiki məşğələlərlə möhkəmləndirilir. Bunun üçün yuxarı komandanlığın təsdiq etdiyi döyüş hazırlığı planına əsasən, poliqonlarda dərslər, atışlar, təlimlər keçirilir. Əsgərlərimiz hər dərsə maraqla və məsuliyyətlə yanaşırlar. Onlar üzərlərinə düşən vəzifəni dərindən dərk edirlər. Komandir heyəti onların bu səylərini qiymətləndirir. Məşğələlər zamanı fərqlənənlərə fəxri fərman, təşəkkür və növbədənkənar məzuniyyət verilir. Döyüş qabiliyyəti və mənəvi-psixoloji ruhu yüksək olan əsgər ən müasir silah-texnika ilə döyüşlərdə istənilən nəticəyə nail olur. Bütün bunları nəzərə alaraq şəxsi heyətin asudə vaxtına xüsusi diqqət yetirir, yerləşdiyimiz rayonun mədəniyyət mərkəzlərinə, parklarına gəzintilər, həmçinin konsert proqramları təşkil edirik."

(Ardı 2-ci səhifədə)

AZƏRBAYCAN ORDUSU

# Hərbi pilotumuzun yaxın qohumları görülən tədbirlər barədə məlumatlandırılıb





*Qəzaya uğramış hərbi təyyarənin pilotunun ailə üzvləri və yaxınları təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi məqsədilə yaradılan əməliyyat qərargahında Müdafiə naziri ilə görüşüblər.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüş zamanı pilotumuzun yaxınları "Təki, Vətən sağ olsun! Övladımızın xidməti ilə şərəf duyuruq!" deyərək, göstərilən diqqətə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Azərbaycan Müdafiə Nazirliyi Pakistan tərəfinə başsağlığı verib

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Pakistan İslam Respublikası Silahlı Qüvvələrinin Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri general Zübair Mahmud Hayata, Ordu komandanı general Qamar Caved Bacvaya və Federal Müdafiə naziri cənab Pervez Xattaka başsağlığı ünvanlayıb.

Başsağlığında deyilir: "Hərbi təyyarənin qəzaya uğraması nəticəsində qardaş Pakistan Silahlı Qüvvələrinin hərbi qulluqçularının həlak olması xəbəri məni dərindən kədərləndirdi.

Həlak olan hərbi qulluqçulara Allahdan rəhmət diləyir, onların yaxınlarının dərdlərinə şərik olur, ailələrinə dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin.

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

**30 iyul 2019-cu il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 19 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan kəndində yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım kəndində, Berd rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Muncuqlu kəndində və Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Tağıbəyli, Kəngərli, Mərzili, Füzuli rayonunun Qərvənd, Kürdlər, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# O yerlərə qayıdışa az qalıb

(Əvvəli 1-ci səhifədə)

Zabitlə söhbətimizdən sonra döyüş mövqeyinə yollanırıq. Çavuş Şahin Hüseynov bizi döyüş mövqeyi ilə tanış edir. Düşmən mövqeyinin yerləşdiyi yeri göstərir, "həyəcan" və "basqın" zamanı hansı tədbirlərin ilkin olaraq həyata keçirildiyini bildirir. Ş.Hüseynov işğal altında olan torpaqlarımızdan danışanda gözlərindəki qisas hissini, düşmənə olan nifrətini görməmək mümkün deyil.

- Hərbçi olmaq böyük şərəfdir. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi yenidən ordu sıralarına çağrıldığım gün ən xoşbəxt günüm idi. Mənə yenidən Vətənimizi qorumaq həvalə edilmişdi. Xidmət etdikcə gördüm ki, Vətənin müdafiəsində dayanan oğullarımız nə qədər cəsur, əqidəli və iradəlidir. Vətən üçün canlarından keçənlərin daima ən yüksək zirvələrdə qərar tutduqlarını, xalqın qəlbində yaşadıqlarını bilirik. Əsgərlərimizlə birgə Vətən qarşısındakı borcumuzu layiqincə yerinə yetiririk. Hər an düşmənin təxribatlarının qarşısını almağa hazırıq. İnanıram ki, tezliklə Azərbaycan əsgərini gözləyən Laçına, Kəlbəcərə, Şuşaya, eləcə də tarixi torpaqlarımıza aparan yolları düşməndən azad edəcəyik. İllərdir qələbə həsrəti ilə yaşayan xalqımıza qələbə sevincini yaşadacağıq.

Mövqe başçısı ilə döyüş növbətçiliyi aparan şəxsi heyətin yanına çatırıq. İlk həmsöhbətimiz əsgər Rəhim Məmmədov olur. "Vətənimə bağlılıq, Vətənimiz üçün özünü oda-alova atmaq hər birimizin müqəddəs borcudur. Doğulub boya-başa çatdığım rayon düşmənlə təmas xəttindədir. Uşaq vaxtlarımdan atəş səslərini eşitmək mənim üçün adi hala çevrilmişdi. Atam Qarabağ müharibəsi veteranıdır. O Qazax istiqamətində gedən döyüşlərin iştirakçısı olub. Müharibə illərində mənfur düşmən sərhədyanı bütün rayonlarımıza hücum etmişdi. Qazax rayonu da həmin təxribatların qurbanlarından olub. Ermənilər soydaşlarımıza qarşı insanlığa sığmayan vəhşiliklər ediblər. Bütün bunları atamın söhbətlərindən eşitmişəm. İndi bu müqəddəs vəzifə mənə və silahdaşlarıma həvalə olunub. Komandirlərimizin öyrətdiklərini çalışırıq dərindən mənimsəyək. Asudə vaxtlarımızda da biliklərimizi təkmilləşdiririk. Komandirlərimiz bununla yanaşı, işğal altında olan dilbər guşələrimizdən, Vətənimiz üçün canını qurban edən oğullarımızdan danışır, tezliklə o yerlərə yenidən qayıdacağımızı deyirlər. Biz də bunun üçün üzərimizə düşən vəzifəyə məsuliyyətlə yanaşır, Ali Baş Komandanımızın döyüş əmrinə hər an hazırıq."



- İşğal altında olan torpaqlarımız hər birimiz üçün əzizdir, - deyə əsgər Rauf Mötəbərli söhbətə başlayır. - Mənim üçün həm də sağalmaz yaradır. Biz əslən Laçın rayonunun Ərikli kəndindənik. Valideynlərim həmişə oranın gözəl təbiətindən - meşələrindən, saf bulaqlarından, ceyran-cüyürlərindən, dağ keçilərindən, sərt qayalarından, başı ağ çalmalı dağlarından, ucsuz-bucaqsız yaylaqlarından danışardı. Atam deyərdi ki, Laçınımızda dünyanın heç bir yerində tapılmayan gül-çiçəklər bitir. Çox heyifsilənirəm ki, mən o gözəl yerləri görə bilmədim. Amma inanıram ki, o yerlərə yenidən ayaq basacağımız gün uzaqda deyil. Biz də doğma el-obasından didərgin düşən soydaşlarımızın hər gün həsrətlə gözlədiyi bir xəbəri verməyin intizarındayıq. Biz Ali Baş Komandamızın rəhbərliyi ilə haqq-ədaləti bərqərar edəcəyimizə inanırıq.

Ata-baba yurdundan didərgin düşən soydaşımızın sözlərini eşitdikcə ürəyimiz qübar olur. Əsgərin dediyi fikirləri doğma ocağı üçün həsrət çəkən neçə-neçə həmvətənimizin dediyi fikir kimi qəbul edirəm. Əsgər həm də onu demək istəyir ki, ordumuzun şəxsi heyəti Vətənin sadiq əsgərləri olaraq xalqımızın həsrətinə son qoymağa hazırdır. Əsgər Ümid Nağdəliyev də silah yoldaşının sözlərinə qoşularaq, əsgəri xidmətin hər kişinin həyatında keçməli olduğu vacib mərhələlərdən biri olduğunu vurğulayır.

- Hər bir azərbaycanlı üçün əsgəri xidmət 18 ayla bitmir. Nə qədər ki, torpaqlarımız işğal altındadır, Vətənimizi qorumağa hazır olmalıyıq. Bu məsələ artıq həyatımızın məqsədidir. Hesab edirəm ki, ön xətdə xidmət etmək həm şərəflidir, həm də gələcək üçün böyük təcrübədir. Vətənimə olan sevgim, düşmənə nifrətim, komandirlərimizin vətənpərvərlik ruhunda çıxışları məni müddətli hərbi xidmətimdən sonra ordu sıralarında qalıb xidmətimi davam etdirməyə ruhlandırır. Döyüş mövqeyində ilk gündən xidmətlə bərabər, istirahət etməyi də öyrəndim. Asudə vaxtlarımızda kitab oxuyur, radio və televiziya proqramlarını izləyirik. Ölkədə və regionda baş verən hadisələrdən xəbərdar oluruq.

Əsgərimizin sözlərindən komandirlərinə olan rəğbəti, onların arasında olan sağlam münasibəti görməmək mümkün deyil. Əsgər Ümid Nağdəliyevlə söhbətimizi yekunlaşdıraraq əsgər yataqxanasına üz tuturuq. Yataqxanada olan səliqə-sahman ürəkaçandır. Burada Vətənini göz bəbəyi kimi qoruyan, ürəyi Vətən sevgisi ilə döyünən əsgər Aşiq Qasımzadə ilə həmsöhbət oluruq.

"Döyüş növbətçisi olanda işğalda olan torpaqlarımızı görürəm. Heyifsilənirəm ki, yurdumuzun dilbər guşələri indi düşmən tapdağındadır. Bir zaman oralarda soydaşlarımız yaşayır, yurd-yuvalarımızdan toybayram səsləri gəlirdi. Bunları fikirləşəndə insan düşmənin üzərinə irəliləmək istəyir. Ancaq inanıram ki, tez bir zamanda komandirlərimizin rəhbərliyi altında erməniləri ata-baba yurdumuzdan qovub çıxaracağıq. Böyük Qələbə uğrunda gedəcək döyüşlərdə iştirak etmək üçün əsgəri xidmətimdən sonra müvafiq kursu keçərək, Vətənimizin müdafiəçilərinin sıralarına qatılacağam. Üçrəngli bayrağımızı Qarabağımızın ən yüksək zirvəsi olan Qızqayaya, Qırxqıza, Böyük Kirsə sancacağıq", - əsgər Aşiq Qasımzadə deyir.

Ezamiyyətdə olduğumuz bölmə düşmənlə təmas xəttində yerləşir, burada şəxsi heyət hər cür sosial-məişət şəraiti ilə təmin olunub. Vətənin keşiyində ayıq-sayıq dayanan oğullarımız da yuxarı komandanlığın etimadını öz xidmətləri ilə doğrultmağa çalışırlar. Hər birinin sözlərindən bir daha əmin olursan ki, torpaqlarımızın müdafiəsi əmin əllərdədir.

**Baş leytenant
Ruslan HƏSƏNZADƏ,
"Azərbaycan Ordusu",
fotolar
C.CƏFƏROVUNDUR**

# Vətəni sabah onlar müdafiə edəcəklər

## "Gənc Heydərçilər" hərbi-vətənpərvərlik təmayüllü yay istirahət düşərgəsi başa çatıb



Hər bir xalq öz xoşbəxt gələcəyini yetişməkdə olan gənc nəsillə bağlayır. Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması xalqın xoşbəxt gələcəyinə zəmanətidir.

Hər zaman Ulu Öndər ideyalarına sadiq qalan ölkəmizin bütün gənclərinin və yeniyetmələrinin bir arzusu var - yaxşı təhsil almaq, elmin sirlərinə yiyələnmək, Vətənə layiqli övlad olmaq və xalqımızın xoşbəxt, firavan gələcəyi naminə daima çalışmaq, öyrənmək. Şübhəsiz, bu, belə də olacaq. Çünki Azərbaycan gəncliyi ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə işıqlı sabahlara, uğurlu gələcəyə inamlıdırlar.

Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Nəsimi rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilən "Gənc Heydərçilər" hərbi vətənpərvərlik təmayüllü yay istirahət düşərgəsi layihəsi də ölkə Prezidentinin gənclərlə bağlı fəaliyyət proqramında yer alan vacib istiqamətlərdəndir. Qeyd edək ki, hərbi vətənpərvərlik təmayüllü yay istirahət düşərgəsinin hər il təşkil olunmasında əsas məqsəd yeniyetmələrin vətənpərvərlik ruhunda tərbiyə olunması,



onlarda hərbi xidmət haqda ilkin təsəvvürün formalaşdırılması və ordu həyatının xüsusiyyətləri barədə biliklərə nail olmalarıdır. Artıq altıncı ildir ki, Müdafiə Nazirliyi tərəfindən həyata keçirilən bu layihə öz uğurlu nəticələrini göstərməkdədir.

...İyulun 15-də Zabitlər bağından Müdafiə Nazirliyinin "N" hərbi hissəsində təşkil edilən hərbi vətənpərvərlik təmayüllü yay istirahət düşərgəsinə yola düşən "Gənc Heydərçilər"in sonuncu düşərgə günü idi. Onlar bağlanış mərasiminə ciddi hazırlaşırdılar. 10 gün ərzində düşərgədə qazandıqları hərbi bilik və bacarıqlarını tədbir iştirakçıları qarşısında nümayiş etdirəcəkdilər. Ona görə də gərgin məşqlər aparılırdı.

Müdafiə Nazirliyinin nümayəndəsi polkovnik-leytenant Kamran Nəsibov layihə ilə bağlı fikirlərini bizimlə bölüşdü: "Düşərgədə ölkəmizin müxtəlif bölgələrindən şəhid və müharibə veteranlarının övladları, həmçinin ön xətdə xidmət edən hərbi qulluqçuların övladları, tədris əlaçıları dincəliblər. Düşərgənin keçirildiyi müddətdə "Gənc Heydərçilər"in yerləşdiyi rayonun və ətraf rayonların mədəni-tarixi mərkəzlərinə gəzintiləri təşkil edilib. Eyni zamanda onlar Quba Soyqırımı Memorial Kompleksini də ziyarət ediblər. Onların hərbi texnikalar və silahlarla tanışlığı, atıcı silahlardan praktiki atışlar, ilkin hərbi vərdişlərə yiyələnməsi həyata keçirilib. İnanıram ki, burada dincələn hər bir məktəblinin həyatında bu düşərgənin böyük əhəmiyyəti olacaq, onların hərbi vətənpərvərlik tərbiyəsinə böyük təsir göstərəcək." Müdafiə Nazirliyinin nümayəndəsi əminliklə bildirdi ki, düşərgədə həyatlarının ən xoş anlarını yaşayan "Gənc Heydərçilər" burada qazandıqları bilik və bacarıqlarını bundan sonra da davam və inkişaf etdirəcək, ölkəmizin gələcəyinin daha gözəl və firavan olmasına öz töhfələrini verəcəklər.

İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin psixoloji iş bölməsinin məsləhətçi-psixoloqu İlqar Orucov belə layihələrin respublikamızda genişlənməsinin əhəmiyyətini vurğuladı. "Yeniyetmə gənclərlə bağlı belə yay düşərgələrinin təşkili onlarda kollektivçilik ənənələrinin yaşadılması və inkişaf etdirilməsinə güclü təkan verir. Həmçinin, yeniyetmə gənclərin sərbəst həyata alışmasında, ailədən kənarda yaşamaq vərdişlərinin inkişaf etdirilməsində, ibtidai hərbi biliklərə yiyələnmələrində və hərbi xidmət anlayışının öyrədilməsində böyük rol oynayır. Düşərgə müddətində yeniyetmə gənclərlə psixoloji testlər apardıq, diqqətin və onun paylanmasının, hafizənin, məntiqin yoxlanılmasına yönəlik yarışlar təşkil etdik. Qalibləri müəyyənləşdirdik. Yarışlarda 10 nəfər 1-ci, 7 nəfər 2-ci, 7 nəfər 3-cü yeri tutdu. Belə düşərgələr yeniyetmə gənclərimizdə hərbi vətənpərvərlik tərbiyəsini artırmaqla yanaşı, onlara orduya, dövlətə, Vətənə sevgi hisslərini də aşılayır. Gələcəkdə hərbi xidmətlə bağlı hər birində ilkin təsəvvür yaranır. Bu çox zəruri məsələdir".

Məlum oldu ki, düşərgədə ədəbi-bədii təqdimatlar, poeziya axşamı, müxtəlif viktorina və yarışlar, "Əsgərə məktub" müsabiqəsi keçirilib, musiqili-əyləncəli proqramlar təşkil olunub.

Düşərgədə fəallığı ilə seçilən bir qrup gənc Heydərçi ilə həmsöhbət olduq.

Hərbi qulluqçu övladı Həsən Həsənli düşərgənin ən fəal, savadlı və bacarıqlı yeniyetmələrindən biridir. Bakı şəhəri, Nəsimi rayon 159 saylı məktəbin 8-ci sinfində təhsil alır. Dərs əlaçısıdır. Həsən dedi ki, burada keçirdiyimiz günlər ən xoş günlər kimi yaddaşımızda qalacaq: "Silah və texnikaları canlı olaraq gördük. Onlar haqqında bilgilərimiz oldu. Bir çox müasir silahlar haqqında bizə məlumatlar verildi. İdman və sıra hazırlığımızı artırdıq. Düşərgədə çox maraqlı günlər keçirdik. Burada çoxlu dostlar qazandım."

Düşərgədə keçirilən diqqət və məntiqi testin qalibi Qalib Zeynalov Bakı şəhəri Nəsimi rayon 16 saylı Texniki Humanitar Liseyin 11-ci sinif şagirdidir. Tədrisdə zərbəçidir. Arzusu hüquqşünas olmaqdır. "Burada çox gözəl istirahət etdik. Maraqlı proqramlar təşkil olundu. Yarışlar, müsabiqələr, viktorinalar keçirildi. Düşərgədə qazandığımız biliklər çox qiymətlidir. Dostlarım üçün darıxacam. Sanki biz də burada əsgər həyatı yaşadıq".

Düşərgədə şahmat və dama üzrə keçirilən yarışların qalibi Zaur Balayev Bakı şəhəri Nəsimi rayon 16 saylı Texniki Humanitar Liseyin 10-cu sinfində təhsil alır. Atası Aprel döyüşlərinin iştirakçısıdır. İstefada olan polkovnik-leytenant, 1-ci qrup Qarabağ əlili Gülağa Həşimov Aprel döyüşlərində ağır yaralanıb. Zaurun ən böyük arzusu torpaqlarımızın tezliklə düşməndən azad edilməsidir. O, atasının yolunu davam etdirmək arzusundadır.

Murad Məhərrəmli isə düşərgədə keçirilən bütün musiqili və əyləncəli proqramların hazırlanmasında və rəqslərə müxtəlif quruluşların verilməsində fəal iştirak edib. Həmsöhbətim Şuşa Şəhər İncəsənət Məktəbinin xoreoqrafiya sinfini əla qiymətlərlə bitirib.

Elgün Nəsirli düşərgənin ən fəal "Gənc Heydərçilər"indən sayılır. Bakı şəhəri Yasamal rayon 20 saylı məktəbin 8-ci sinif şagirdidir. Arzusu pilot olmaqdır. "Burada hərbi xidmət haqqında bilgilər qazandıq. İlkin hərbi vərdişlər barədə məlumatlarımız oldu. Yay istirahətimiz çox maraqlı təşkil edildi. Gələn il də düşərgədə iştirak etmək arzusundayam."

"Əsgərə məktub" müsabiqəsinin qalibi Niftalı Göyüşov zabit övladıdır. Gəncə şəhər 44 saylı tam orta məktəbin 6-cı sinfində təhsil alır. Müsabiqədə birinci yeri qazanıb. Dedi ki, atasının yolunu davam etdirəcək. O da hərbçi olacaq.

Hərbi geyimdə olan bu yeniyetmə gənclər qısa müddətdə hərbi hissədə onlar üçün ayrılmış əsgər yataqxanasında ordu həyatı yaşayıblar. Düşünürsən ki, düşərgədə keçirdikləri xoş istirahət günləri onların xatirəsində əbədi qalacaq. Burada qazandıqları biliklər onların gələcək həyatlarında lazımlı, gərəkli biliklər olacaq. Bu günün gənc Heydərçisi sabahın Azərbaycan əsgəridir.

Düşərgədə ərzaq təminatı ilə də maraqlandıq. Təlimatçı-aşpaz Adilxan Məmmədov 6-cı ildir ki, "Gənc Heydərçilər" yay istirahət düşərgəsinin ərzaq təminatına cavabdeh olduğunu dedi. "Düşərgədə dincələn uşaqlar ən yüksək səviyyədə səhər, nahar, şam yeməyi ilə təmin olunurlar. Bu xidməti altı ildir ki, mən aparıram. Dadlı, ləzzətli ev xörəkləri, müxtəlif meyvə şirələri, şirniyyatlar uşaqların çox xoşuna gəlir. Uşaqlar bizim gələcəyimizdir.



Onlara gözəl qulluq etməliyik ki, gələcəyimiz xoş, firavan olsun."

..."Gənc Heydərçilər" gərgin məşqlərdən sonra yorulmuşdular. Düşərgənin sabahkı bağlanış mərasimində nümayiş etdirəcəkləri oyunları təkrar-təkrar yerinə yetirmişdilər. Taqımlara bölünən "Gənc Heydərçilər" sıraya düzülərək onlar üçün ayrılmış əsgər yataqxanasına doğru irəliləyirlər. Artıq yatmaq vaxtıdır.

"Gənc Heydərçilər" hərbi vətənpərvərlik təmayüllü yay istirahət düşərgəsi iyulun 26-da sona çatdı. "N" hərbi hissədə Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Nəsimi rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilən "Gənc Heydərçilər" yay istirahət düşərgəsinin təntənəli bağlanış mərasimi keçirildi. Yeniyetmələrin vətənpərvərlik ruhunda tərbiyə olunması, onlarda hərbi xidmət haqda ilkin təsəvvürün formalaşdırılması, ordu həyatının xüsusiyyətləri barədə biliklərə nail olmaları məqsədilə təşkil olunan hərbi vətənpərvərlik təmayüllü yay istirahət düşərgəsi iyulun 15-dən iyulun 26-dək davam etdi.

Bağlanış mərasimində Şəxsi Heyət Baş İdarəsi rəisinin müavini - İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin rəisi general-mayor Rasim Əliyev, Nəsimi rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov, "N" hərbi hissənin zabit və əsgərləri, valideynlər və ictimaiyyət nümayəndələri iştirak etdilər.

Tədbir Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin, respublikamızın suverenliyi və ərazi bütövlüyü uğrunda canından keçən Vətən övladlarının ruhunun bir dəqiqəlik sükutla yad olunması ilə başladı. Dövlət himni səsləndirildi.

Tədbirdə çıxış edən general-mayor Rasim Əliyev "Gənc Heydərçilər"i maraqlı yay istirahət düşərgəsinin başa çatması münasibətilə təbrik etdi, onlara gələcəkdə müstəqil Azərbaycanımıza layiqli övlad və əsl vətəndaş olmalarını arzuladı. İdarə rəisi ölkəmizdə belə silsilə tədbirlərin keçirilməsini dövlət başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısının təzahürü olduğunu diqqətə çatdırdı.

Nəsimi rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov belə hərbi vətənpərvərlik ruhlu layihələrin ölkəmizdə həyata keçirilməsinin əhəmiyyətini vurğulayaraq, "Gənc Heydərçilər"i düşərgənin başa çatması münasibətilə təbrik etdi, onların gələcəkdə xalqımıza layiqli övlad olmalarını və fiziki cəhətdən möhkəmlənməyi, elmin dərinliklərinə yiyələnməyi, tədrisdə daima uğurlar əldə etməyi arzuladı.

Bağlanış mərasimi "Gənc Heydərçilər"in öyrəndikləri hərbi oyunların nümayişi ilə davam etdi.

Sonda "Gənc Heydərçilər"in hərbi təmayüllü yay istirahət düşərgəsi müddətində keçirilmiş viktorina və yarışlarda yüksək nailiyyətlər qazanmış yeniyetmələr mükafatlandırıldı.

Bağlanış mərasimi xatirə şəkillərinin çəkilməsi ilə sona çatdı.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**Oktay ƏFƏNDİYEVİNDİR**

# Milli Məclis sədrinin müavini Bahar Muradova yeni istifadəyə verilən hərbi hissədə yaradılan şəraitlə tanış olub

*Milli Məclis sədrinin müavini Bahar Muradova cəbhə bölgəsində yeni istifadəyə verilən hərbi hissədə yaradılan şəraitlə tanış olub.*





AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Bahar Muradova və Füzuli rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev əvvəlcə Horadiz şəhərində Aprel şəhidlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edərək önünə gül dəstələri qoyub, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin xatirəsini hörmət və ehtiramla yad ediblər.

Əsgərlər qarşısında çıxış edən Bahar Muradova Prezident, Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğu istiqamətində həyata keçirdiyi uğurlu fəaliyyətdən, silahlı qüvvələrə göstərilən diqqət və qayğıdan danışıb, hərbi qulluqçulara çətin və şərəfli xidmətlərini yerinə yetirmələrində müvəffəqiyyətlər arzulayıb. Bildirib ki, Azərbaycanda hərbi hissələrin maddi-texniki bazasının gücləndirilməsi, ordunun döyüş qabiliyyətinin yüksəldilməsi və müasir silahlarla təminatı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində hərbi və siyasi baxımdan böyük əhəmiyyət kəsb edir.

Sonra Milli Məclisin sədr müavini hərbi hissənin ərazisində yerləşən əsgər yataqxanası, tibb məntəqəsi, ideoloji otaq, məişət otağı, yeməkxana, hamam, əşya anbarı və digər xidməti otaqlara baxış keçirib, şəxsi heyətin həyat və məişət şəraiti ilə yaxından tanış olub.

# Gənc zabitlərin xidmətə qəbulu ilə bağlı hərbi hissədə tədbir keçirilib

*Azərbaycan Ordusunun hərbi hissələrindən birində ali hərbi məktəbi yeni bitirmiş gənc zabitlərin xidmətə qəbulu ilə bağlı təntənəli mərasim keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbir hərbi hissənin sıra meydanında təntənəli düzülüşlə başlayıb, dövlət bayrağı meydana gətirilib. Ümummilli lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olunduqdan sonra Dövlət Himni ifa olunub.

Gənc zabitlərə hərbi hissənin tarixindən, keçdiyi döyüş yolundan, hazırda burada yaradılan xidməti və sosial-məişət şəraitindən danışılıb.

Leytenantlar əsgər yataqxanaları, anbarlar, avtopark və döyüş texnikası üçün saxlanclar, bölmələrin istifadəsində olan döyüş texnikaları və silahlarla tanış olublar.



# Füzulidə şəhid ailələri ilə görüş

Milli Məclis sədrinin müavini, İnsan hüquqları komitəsinin sədri Bahar Muradova Füzuli rayonunda şəhid ailələri ilə görüşüb.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, çay süfrəsi arxasında keçirilən görüşdə Milli Məclis sədrinin müavini Bahar Muradova və Füzuli rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev şəhid ailələri ilə söhbət edib, onların sosial vəziyyəti ilə maraqlanıb, müraciətlərini dinləyiblər.

Ölkəmizdə şəhid ailələrinə göstərilən diqqət və qayğıdan danışan Bahar Muradova bildirib ki, respublikamızın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş Vətən övladları xalqımızın qəlbində daim yaşayacaq. Qarabağ müharibəsi əlilləri və şəhid ailələri dövlətimizin hərtərəfli qayğısı ilə əhatə olunub. Şəhid ailələrinə dövlət tərəfindən daim dəstək göstərilir, onlara mənzillər, minik avtomobilləri verilir. Prezident İlham Əliyevin şəhid ailələri ilə çoxsaylı görüşləri, ölkəmizin ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş elan edilmiş hərbi qulluqçuların vərəsələrinə dövlət başçısının müvafiq fərmanı ilə birdəfəlik ödəmənin verilməsi bu kateqoriyadan olan insanlara diqqət və qayğının təzahürüdür.

Şəhid ailələrinin nümayəndələri göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlıqlarını bildiriblər.

Milli Məclis sədrinin müavini Bahar Muradova və Füzuli rayon ictimaiyyətinin nümayəndələri daha sonra Alıxanlı kəndinə gələrək 2017-ci ildə Ermənistan ordusunun təxribatının qurbanı olan iki yaşlı Zəhra Quliyevanın və onun nənəsinin məzarını ziyarət edib, ailəsinə baş çəkiblər.

Ailə üzvləri ilə söhbət zamanı Bahar Muradova bildirib ki, 2 yaşlı Zəhranın qətlə yetirilməsi dünya ictimaiyyətinin diqqətini bir daha Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə və erməni vəhşiliyinə yönəltdi. ATƏT Parlament Assambleyasının Minskdə keçirilən 26-cı illik sessiyasında Ermənistanın dinc sakinləri qətlə yetirməsi 57 ölkədən olan nümayəndələrin diqqətinə çatdırıldı. Sessiyada Zəhranın və onun nənəsinin qətlə yetirilməsi qəti şəkildə pislənildi, uşaq qatillərinin əməllərinə hüquqi qiymət verilməsi tələb olundu.

# XİN: Yalnız Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərindən çıxarılması bölgədə əmin-amanlığı təmin edəcək

*Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin mətbuat katibi Ermənistan XİN-in cəbhə xəttində gərginliyin artmasına dair verdiyi açıqlama ilə bağlı KİV-in sualını cavablandırıb.*

AZƏRTAC xəbər verir ki, mətbuat katibi deyib: "Bu gün regionda yaşanan gərginliyin, ümumiyyətlə Ermənistan və Azərbaycan arasında "cəbhə bölgəsi"nin mövcud olmasının yeganə səbəbkarı Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərini, yəni Dağlıq Qarabağ və ətraf yeddi rayonu hərbi işğal edən Ermənistandır. Bu məsələdə müxtəlif bəhanələrlə digər günahkarı axtarmaq özü-özünü aldatmaqdan başqa bir şey deyildir. Çünki beynəlxalq ictimaiyyətin, o cümlədən ATƏT-in Minsk Qrupunun üç üzv ölkəsinin daimi üzvü olduğu BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələr və digər təşkilatların qərarları göz qabağındadır.

Nə qədər ki, Ermənistan Respublikasının silahlı qüvvələri Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış torpaqlarında mövcudluğunu saxlayır, əfsuslar olsun ki, bu kimi insidentlərin başvermə ehtimalı yüksəkdir. Bu kimi halların qarşısının alınmasının yeganə yolu Ermənistanın işğalçı qüvvələrinin Azərbaycan ərazilərindən çıxarılmasının təmin edilməsidir.

Ermənistan XİN-i bir müddət öncə "bir əl ilə danışıqlar aparıb, digər əl ilə atəş açmağın" düzgün olmadığını iddia etdiyi halda, bu bəyanatdan sonra Azərbaycanın Qazax rayonu istiqamətində sərhəd məntəqəsinin mövqelərini atəşə tutaraq, Azərbaycan Dövlət Sərhəd Xidmətinin əsgərini yaralamışdı. Görünür bir əli ilə Azərbaycan ərazilərini hərbi işğal altında saxlayan Ermənistan digər əli ilə danışıqlar aparmamaq üçün də bəhanələr axtarışındadır. Xatırlatmaq istərdim ki, Vaşinqton görüşündən sonra Xarici İşlər naziri Elmar Məmmədyarov münaqişənin həlli üzrə aparılan danışıqlar prosesi çərçivəsində bundan öncə də əsas sənədlərin müzakirə olunduğu zaman cəbhə bölgəsində heç də tam sakitliyin hökm sürmədiyini, lakin buna rəğmən danışıqların davam etdirildiyini bəyan etmişdi.

Azərbaycan tərəfi torpaqlarının işğal olunması faktı ilə heç zaman barışmayacaq və bunu Ermənistan tərəfinin çoxdan anlaması gərəkdi. Yalnız Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərindən çıxarılması və bu ərazilərdən didərgin salınmış azərbaycanlıların öz evlərinə geri qayıtması bölgədə gərginliyin aradan qaldırılması, dayanıqlı sülh və əmin-amanlığı, rifahın bərpa olunmasını təmin edəcək".

# “Konflikt jurnalistikası məktəbi”nin təlimləri

*Müdafiə Nazirliyinin dəstəyi ilə "Dinc Dünya" Araşdırma Mərkəzinin həyata keçirdiyi "Konflikt jurnalistikası məktəbi"nin ikinci mərhələsi çərçivəsində meşə-çöl təlimləri keçirildi.*



Təlimlərdən öncə hərbi sahədən yazan jurnalistlərlə görüşən general-mayor Hikmət Həsənov KİV nümayəndələri ilə hərbi hissələrdə belə təlimlərin keçirilməsinin sevindirici hal olduğunu qeyd etdi. Jurnalistləri maraqlandıran sualları cavablandıran general-mayor Hikmət Həsənov vurğuladı ki, artıq beşinci ildir uğurla davam edən bu təlimlər, qarşılıqlı inamın, səmimiyyətin təzahürüdür. "Hərbi sahədən yazan jurnalistlər cəmiyyətlə ordu arasında körpü rolunu oynayır. Ordumuzda həyata keçirilən yenidənqurma işlərinin, yaradılan yüksək məişət şəraitinin, şəxsi heyətin mənəvi-psixoloji hazırlığının səviyyəsinin ictimaiyyətə dolğun və dəqiq çatdırılmasında sizlərin üzərinə böyük məsuliyyət düşür. Siz, həm ordudakı reallıqları dolğun şəkildə cəmiyyətə çatdırmalı, həm də informasiya müharibəsində mübarizə apararaq ordumuzun nüfuzunu salmağa yönəlmiş, yanlış faktların yayılmasının qarşısını almalısınız. Ordumuzun istər döyüş hazırlığı, istərsə də təminatı göz qabağındadır. Biz torpaqlarımızı müharibə yolu ilə azad etməyə hər an hazır və qadirik. Bunu istər Aprel döyüşlərində, istərsə də Günnüt zəfərində bir daha sübut etdik. Əminliklə deyə bilərəm ki, işğaldan azad edəcəyimiz torpaqlarımızda qələbə reportajları yazacağınız günlər yaxındadır. İnanırıq ki, qazandığınız bilik və bacarıqlardan gələcək fəaliyyətinizdə yararlanaraq ordumuzun naliyyətlərini bütün dünyaya çatdıracaqsınız."



Sonra təlimalanlar təlimin növbəti mərhələsi üçün təyin olunmuş ərazidə məskən saldılar. Təlimin planına əsasən, üç gün dağlıq və meşəlik ərazidə yaşayan jurnalistlərlə belə ərazilərdə fəaliyyətlə məşğul olarkən qarşılarına çıxan maneələri dəf etmək üçün təcrübəli zabitlər tərəfindən döyüş şəraitinə tam uyğunlaşdırılmış, relyefin tələblərinə cavab verən təlim məşqləri keçirildi. Təlimlər zamanı iştirakçılar sıldırım qayalıqlardan endilər, su maneəsindən keçdilər. Həmçinin yüksəkliyə qalxarkən iştirakçılar insan orqanizmində oksigen çatışmazlığı və digər problemlərlə üzləşməmək üçün qabaqlayıcı tədbirlərin həyata keçirilməsi haqqında məlumatlandırıldılar. Jurnalistlər qəfil düşmən basqınlarına uğrayan zaman güllədən qorunmaq üçün düzgün yerlərin seçilməsi üsulları, çəkilişlərin aparılması qaydalarını praktiki olaraq icra etdilər.

Jurnalistlərə strateji ərazilər, yüksəkliklər ələ keçirilərkən, hadisə yerindən operativ şəkildə redaksiyaya xəbər ötürərkən döyüşçülərlə birgə hərəkət etmə, düşmən qüvvələrinin arxasında uzun müddət çöl şəraitində qalma vərdişləri də aşılandı. Təlimalanlara şəraitə uyğun olaraq sutəmizləyici süzgəclərin, günəş kondensatorlarının, küləkdən qorunmaq üçün vasitələrin, müxtəlif növ tonqalların hazırlanması, od əldə olunması üsulları, bataqlıq ərazilərdə dincəlmək üçün daldalanacaqların düzəldilməsi və istifadəsi qaydaları, eləcə də snayper atəşindən və qumbara partlayışından mühafizə olunmağın yolları öyrədildi. Həmçinin yaralara ilkin tibbi yardımın göstərilməsi, yaralının döyüş meydanından çıxarılması, qanaxmalar, çıxıq və sınıqlar zamanı sarğıların qoyulması qaydaları praktiki olaraq göstərildi. Bununla yanaşı, səma cisimlərinə, saata, kompasa, ağac kötüklərindəki dairələrə, ağacın üzərindəki mamırlara əsasən cəhətlərin müəyyən edilməsi öyrədildi.



Nəzərdə tutulmuş təlimlər başa çatdıqdan sonra, fiziki hazırlıqdan normativləri də yerinə yetirən layihə iştirakçıları plana uyğun olaraq "N" hərbi hissəsinin atış poliqonuna gəldilər. Burada onlar bölmənin döyüş atışlı təlimini izləyərək, döyüş vəziyyətində davranma qaydalarını praktiki olaraq icra etdilər. İmitasiya olunan döyüş zamanı özlərinə təhlükəsiz mövqe tutaraq təlimçilər tərəfindən tapşırılan materialın hazırlanması üçün çəkiliş apardılar.

Plana əsasən hər günün sonunda keçirilən yekun iclasda sonrakı günlər ərzində təlimalanların öyrəndikləri müzakirə olundu. Hazırladıqları materiallar, xəbərlər, reportajlar dinləndi və qiymətləndirildi.

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

## Özbəkistan portalı: Ermənistan Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsində təbii sərvətləri vəhşicəsinə talayır

Özbəkistanın interpress.uz portalında Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərində təbii ehtiyatların talanması ilə bağlı məqalə yerləşdirilib.

AZƏRTAC-ın məlumatına görə, yazıda qeyd edilir ki, Ermənistan Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsində və digər ərazilərində təbii sərvətləri vəhşicəsinə talayır. "Bu yaxınlarda İngiltərə tədqiqatçısı Harrold Keyn öz yazılarında və kitabında ermənilərin Dağlıq Qarabağdakı qanunsuz fəaliyyətindən bəhs edib. O, bu məsələdə Robert Köçəryanın, Serj Sarkisyanın və başqalarının adını çəkib. Keyn yazır ki, Azərbaycanın işğal edilən ərazilərindən çıxarılan qızılın Dağlıq Qarabağdan daşınması maraq doğurur. Belə ki, deklarasiya edilməyən qızıl gizli yollarla Livana aparılır. Burada qiymətli metallar bazarına nəzarət edən ermənilər tərəfindən Livan qızılı kimi satılır", - deyə məqalədə vurğulanır.

Yazıda bildirilir ki, əvvəllər bu işdə "Kanada Livan Bankı" da iştirak edib. Sonralar isə "Hizbullah"ın pullarının yuyulmasında adı çəkilən bu bank ABŞ-ın sabiq Prezidenti Barak Obama administrasiyasının təkidi ilə bağlanılıb. Keyn yazır ki, Köçəryan-Sarkisyan cütlüyü Qarabağ qızılı ilə "Hizbullah" terrorçularının güclənməsinə kömək edib.

## Şəhid ailələri və Qarabağ müharibəsi əlillərinə daha 50 mənzil verilib

*İyulun 27-də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Abşeron rayonunun Saray qəsəbəsindəki yeni yaşayış binalarından alınmış 50 mənzili şəhid ailələri və Qarabağ müharibəsi əlillərinə təqdim edib.*

AZƏRTAC xəbər verir ki, mənzillərin təqdimetmə mərasimində Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Anar Kərimov çıxış edərək, Prezident İlham Əliyevin xüsusi qayğısı nəticəsində şəhid ailələri və müharibə əlillərinin mənzillə təminatı sahəsində mühüm addımların atıldığını bildirib. Qeyd edib ki, bu kateqoriyalardan olan şəxslərə 2018-ci ildə nəzərdə tutulduğundan 3 dəfə çox, yəni 626 mənzil təqdim edilib. Bu il isə azı 800 mənzilin verilməsi planlaşdırılıb. "Bu gün təqdim edilən mənzillər də daxil olmaqla, artıq 110 mənzil sahiblərinə verilib", - deyən nazir müavini bununla da indiyədək nazirlik tərəfindən şəhid ailələrinə və müharibə əlillərinə 6764 mənzil təqdim edildiyini vurğulayıb.

Anar Kərimov müharibə əlillərinin avtomobillə təminatı proqramının da gücləndirildiyini deyib. Bildirilib ki, ötən il həmin vətəndaşlara 265 avtomobil verilib, bu il isə 600-ə yaxın avtomobil verilməsi nəzərdə tutulub. Artıq 200 avtomobil təqdim olunub. Beləliklə, indiyədək 6350-dək avtomobil müharibə əlillərinin istifadəsinə verilib.

Nazir müavini diqqətə çatdırıb ki, cari ildə dövlət başçısının təqdim etdiyi iki sosial islahat paketi 4,2 milyon vətəndaşın rifahına ciddi dəstək olub. Onların sırasında şəhid ailələri və müharibə əlilləri də var. Belə ki, həmin vətəndaşlara yönələn təqaüd və müavinətlərin, pensiyaların da əhəmiyyətli dərəcədə artırılması təmin edilib.

Tədbirdə çıxış edən ictimai təşkilatların rəhbərləri Qarabağ müharibəsi əlillərinin, şəhid ailələrinin rifahı naminə görülən işlərin, eyni zamanda, onların mənzillə təmin edilmələrinin ölkəmizdə aparılan güclü sosial siyasətin daha bir təzahürü olduğunu diqqətə çatdırıblar.

Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinin üzvləri Prezident İlham Əliyevin daim həssas qruplara, o cümlədən şəhid ailələrinə, müharibə əlillərinə xüsusi qayğı göstərdiyini məmnunluq hissi ilə vurğulayıblar. Onlar sosial təminatlarının gücləndirilməsi üçün atılan mühüm addımlara, yeni mənzillərlə təmin olunduqlarına görə dövlət başçısına minnətdarlıqlarını ifadə ediblər.

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Mövzu:** Döyüş mühafizəsində, döyüş növbəsində, qarovulda və daxili naryadda xidmətin nümunəvi aparılması ordunun yüksək döyüş hazırlığının rəhnidir.

*İctimai-siyasi hazırlıq qrupunun rəhbəri bu məşğələyə hazırlaşarkən Daxili Xidmət Nizamnaməsinin, Qarnizon və Qarovul Xidməti Nizamnaməsinin, Qoşun Xidməti haqqında əmr və təlimatların tələblərini diqqətlə öyrənməli və məşğələyə hazırlaşarkən öz bölməsinin tapşırıqlarını, xüsusiyyətlərini, xidmət şəraitini nəzərə alaraq mövzunu bölmənin gündəlik həyatı ilə bağlamalıdır.*

**Suallar:**
**1. Döyüş mühafizəsində, döyüş növbəsində, qarovulda və daxili naryadda xidmətin xüsusiyyətləri.**
**2. Bölmənin şəxsi heyətinin qoşun xidmətini yerinə yetirmək üçün hərtərəfli hazırlığa səfərbərliyi.**
**3. Döyüş mühafizəsində, döyüş növbəsində, qarovul və daxili naryadda xidmətin aparılması məsuliyyətli və şərəfli işdir.**

### *Döyüş mühafizəsində, döyüş növbəsində, qarovulda və daxili naryadda xidmətin xüsusiyyətləri*

Hərbi hissələrin və bölmələrin daimi yerləşmə yerlərində, düşərgələrdə və döyüş şəraitində yüksək döyüş hazırlığında olmalarını, qarşıya qoyulmuş döyüş tapşırıqlarını vaxtında və müvəffəqiyyətlə həll etmələrini, mühüm hərbi obyektlərin etibarlı mühafizəsini, bölmələrdə daxili qayda-qanunun saxlanmasını, bölmələrin silah və sursatının, əmlakının qorunmasını təmin etmək üçün döyüş və ümumqoşun nizamnamələrinin tələbləri əsasında müvafiq xidmətlər təşkil olunur. Bu xidmətlər öz xüsusiyyətlərinə görə fərqlənirlər:

- daxili xidmət hərbi hissələrdə, bölmələrdə, parklarda, tədris müəssisələrində, düşərgələrdə, eləcə də qoşunların yerdəyişməsi zamanı günün nizam qaydalarına ciddi riayət olunması, daxili qayda-qanunun saxlanması, silah və sursatın, digər əmlakın qorunması üçün Silahlı Qüvvələrin Daxili Xidmət Nizamnaməsinə uyğun təşkil edilir;
- qarovul xidməti Döyüş Bayrağının, silahların, döyüş texnikasının, sursatların, partlayıcı maddələrin və digər əmlakın saxlanıldığı anbarların və s. hərbi obyektlərin etibarlı mühafizəsini və müdafiəsini təmin edir;
- döyüş mühafizəsi və döyüş növbətçiliyi hərbi hissə və bölmə qarşısında qoyulmuş döyüş tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirmək, döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasını təmin etmək üçün təşkil edilir.

Hazırda Azərbaycan Respublikası ərazisinin bir hissəsinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunduğu bir dövrdə Azərbaycan Ordusunun hərbi hissələri düşmənlə bilavasitə təmas vəziyyətində döyüş mühafizəsi və döyüş növbətçiliyi xidmətlərini aparır və torpaqlarımızın düşməndən etibarlı müdafiəsi kimi şərəfli və eyni zamanda çox çətin bir vəzifəni yerinə yetirir. Bu isə həmin hərbi hissələrin şəxsi heyətində yüksək döyüş hazırlığı, möhkəm nizam-intizam, öz postunda ayıq-sayıq xidmət aparmaq, qorxmazlıq, düşmənə nifrət, öz silahına, komandirlərinə inam kimi döyüşçü keyfiyyətlərinin tərbiyə olunmasını tələb edir. Döyüş mühafizəsi və döyüş növbətçiliyinə təyin olunan bölmənin, hər bir hərbi qulluqçunun əsas vəzifələrindən biri də təhkim olunmuş döyüş və digər texnikanın, silahların, avadanlıqların həmişə saz, döyüş tapşırıqlarının yerinə yetirilməsinə hazır vəziyyətdə saxlanılmasıdır. Döyüş mühafizəsinə təyin olunan hərbi qulluqçu hər hansı bir ekstremal şəraitdə vəzifə borcunu yerinə yetirməyə özünü hazırlamalıdır.

Bu vəzifələri nümunəvi yerinə yetirmək üçün görülən işlərin əsas məqsədi:

- bölmə və hissələrdə döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasını, qoşun xidmətinin əhəmiyyətini hərbi qulluqçulara ətraflı izah etmək;
- hərbi qulluqçularda yüksək şüurluluq, əqidə möhkəmliyi, siyasi sayıqlıq, qarovul və qarnizon xidmətində, döyüş mühafizəsi və döyüş növbətçiliyində öz vəzifə borclarını dəqiq və qüsursuz yerinə yetirmək üçün şəxsi cavabdehlik hissləri tərbiyə etmək;
- hərbi qulluqçuları qoşun xidmətinə dair sənədləri, təlimatları, Müdafiə nazirinin əmrlərini, hərbi nizamnamələri, Azərbaycan Respublikasının qanunlarını dərindən öyrənməyə yönəltmək;
- hərbi nizamnamələrin tələblərinin, qarovul və qarnizon xidməti qaydalarının, döyüş mühafizəsi və döyüş növbətçiliyinin aparılma qaydalarının pozulmasına görə hərbi qulluqçuların məsuliyyətini müəyyənləşdirən hüquq normalarını izah etmək;
- daxili xidmət, qarovul və qarnizon xidmətlərinin yerinə yetirilməsində qabaqcıl təcrübənin öyrənilməsini, ümumiləşdirilməsini və yayılmasını təşkil etmək, qoşunlarda mövcud ənənələri, xidmətdə hünər və qəhrəmanlıq nümunələrini təbliğ etmək;
- qarovula, daxili naryada, döyüş növbətçiliyinə və döyüş mühafizəsinə hazırlıq dövründə və xidmət edərkən hərbçilərlə daha təsirli təlimat və tərbiyəvi xarakterli işlər aparmaq, qabaqcıl təcrübəni komandirlər (rəislər) və şəxsi heyət arasında yaymaq;
- naryadda olan hərbi qulluqçuların maddi-məişət və mədəni tələbatlarının öyrənilib təmin olunmasına qayğı göstərməkdir.

### *Bölmənin şəxsi heyətinin qoşun xidmətini aparmaq üçün hərtərəfli hazırlığa səfərbərliyi*

Daxili xidmətə, qarovul və qarnizon xidmətinə hazırlıq prosesində hərbi nizamnamələrin öyrənilməsi, hərbi qulluqçulara nizamnamə tələbləri ilə yaşamaq və xidmət etmək hissi aşılamaq başlıca yer tutur. Bu məqsədlə döyüş və humanitar hazırlıq məşğələlərindən əlavə məqsədyönlü təbliğat işləri aparılır. Bölmələrdə, hissələrdə və gəmilərdə mühazirələr oxunur, konfranslar keçirilir, söhbətlər aparılır. Mövzuların təxmini adları:

"Nizamnamə qaydalarının yerinə yetirilməsində qoşun xidmətinin əhəmiyyəti", "Hərbi nizamnamələr hərbçi həyatının hüquqi və mənəvi normalarının toplusudur" və s.

Komandirlər və şəxsi heyətlə iş üzrə zabitlər gənc əsgər və matroslara nizamnamələrin əsas müddəalarını izah etdikdə onların diqqətini gündəlik naryadda vəzifə borclarını bilmələrinə, gün növbətçisinə və patrula verilən konkret tapşırıqlara cəlb etməlidirlər.

Hərbi qulluqçularda öz vəzifə borclarını qüsursuz yerinə yetirmək üçün lazım olan mənəvi və döyüş keyfiyyətlərinin formalaşmasında ictimai-siyasi hazırlıq dərslərinin böyük rolu var. Ona görə də ictimai-siyasi hazırlıq dərslərində qrup rəhbərləri döyüş mühafizəsində, döyüş növbəsində, qarovul və daxili naryadda xidmətin aparılmasında möhkəm intizamın və yüksək sayıqlığın əhəmiyyətini daha dərindən anlamaqda hərbi qulluqçulara köməklik edirlər.

Qoşun xidmətinə dair məsələlər məruzələrdə, söhbətlərdə, divar qəzetlərində və döyüş vərəqələrində işıqlandırılır. Hərbi hissələrdə hər ayın sonunda qoşun xidmətinin təhlili aparılır, yekunlaşdırılır və hərbi hissə komandirinin müvafiq əmri ilə elan edilir. Həmin əmrdə qoşun xidmətinin yoxlanılması zamanı aşkar edilmiş nöqsanlar göstərilir, daxili naryad, qarovul, döyüş növbətçiliyi xidmətlərinin aparılmasını yaxşılaşdırmaq üçün tədbirlər müəyyən edilir, eləcə də fərqlənənlərə həvəsləndirmə tətbiq edilir.

### *Döyüş mühafizəsində, döyüş növbəsində, qarovul və daxili naryadda xidmətin aparılması məsuliyyətli və şərəfli işdir*

Daxili xidmətə təyin olunmuş hərbi qulluqçularla iş aparılarkən yataqxanada, döyüş maşınları parkında, yeməkxanada, hərbi şəhərciyin ərazisində nizamnamə qaydalarına əməl edilməsinə onların cavabdehliyi xüsusi qeyd olunur, lazımi təlim məşğələsi keçirilir və bu məşğələdə yerli şəraitə uyğun yüksək sayıqlıq və döyüş hazırlığını təmin edən amillər öyrənilir. İndiki dövrdə qarovul xidmətinin, döyüş mühafizəsinin və döyüş növbətçiliyinin xüsusi əhəmiyyət kəsb etməsi məşğələdə dinləyicilərə çatdırılmalıdır. Bu isə ondan irəli gəlir ki, düşmən kəşfiyyatçıları ordumuzun döyüş sayıqlığı və qoşunların yerləşdiyi məntəqələr haqqında məlumat toplamaq üçün hər cür vasitələrə əl atırlar.

Hərbi Dəniz Qüvvələrinin gəmilərində növbətçiliyin xüsusi növü - "vaxta" xidməti təşkil olunur. Gəminin və onun mexanizmlərinin idarə olunması şəraitinə nəzarət etmək, düşmənin qəfil hücumu zamanı silah tətbiqini və gəmidə nizam-intizamın gözlənilməsini təmin etmək üçün növbətçi daim sayıq olmalıdır. Qarovul rəisi hərbi hissənin (birləşmənin) anbar, park və maşın (təyyarə, qurğu) dayanacaqlarının və digər mühüm obyektlərin mühafizə postlarına xidmətə təyin olunan şəxslərlə xüsusi iş aparır və onların daha sayıq olmasına daim nəzarət edir.

Qoşunların fəaliyyətində daxili xidmət naryadlarının, qarnizon və qarovul xidmətlərinin xüsusi əhəmiyyəti vardır. Bu xidmətlər hissə və bölmələrin döyüş hazırlığını müəyyən edən müasir tələblər əsasında hərbi nizamnamələrə uyğun təşkil olunur. Daxili naryadın vəzifəli şəxslərinin hazırlığı onların nizamnamə vəzifələrini yerinə yetirmələrini təmin edir. Ona görə də naryada təyin olunan şəxsi heyət öz vəzifə borclarını, müxtəlif şəraitlərdə, məsələn, "həyəcan", "toplanış" siqnalları alarkən, silah-sursat verərkən, səhər baxışı və axşam yoxlamaları apararkən, məşğələ saatlarında hərəkət qaydalarının öyrənilməsinə məsuliyyətlə yanaşmalıdır. Naryada təyin olunan hər bir hərbi qulluqçu nizamnamə üzrə vəzifələrini əsaslı təkrar etməlidir.

Qarovul (vaxta) xidmətinə təyin olunan hər bir əsgər, çavuş bu xidmətin döyüş tapşırığı olduğunu, qarovulda qoyulmuş tapşırıqların yüksək məsuliyyətini şüurlu dərk etməli, nizamnamə qaydalarının hər cür pozulmasına qarşı ciddi mübarizə aparmalıdır.

Qarovulda əsas diqqət Döyüş Bayrağının, saxlancların, parkların mühafizəsinə, eləcə də gecə vaxtı və pis hava şəraitində xidmət aparan şəxsi heyətin təlimatlandırılmasına yönəldilir. Onlar öz vəzifələrini yerinə yetirərkən yüksək sayıqlıq nümayiş etdirməlidirlər.

Qarnizon xidmətinin şəxsi heyəti ilə aparılan işlərin forması və məzmunu qarovul xidmətində olduğu kimidir. Lakin burada hərbi qulluqçulara təlimat keçərkən onların hərbi hissədən kənara çıxması, yerli əhali ilə təmasda olması qeyd edilir və ona görə də onlardan daim sayıqlıq, hərbi sirləri qoruyub saxlamaq, təmkinlilik, nümunəvi xarici görünüş tələb olunur.

Ümumiyyətlə, aparılan işlərin əsas məqsədi hərbi qulluqçuları şəraitdən asılı olmayaraq hərbçi şərəfinə layiq xidmət etməyə, Hərbi andın, nizamnamələrin və komandirlərin (rəislərin) tələblərini dəqiq və qüsursuz yerinə yetirməyə ruhlandırmaqdır.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

AZƏRBAYCAN ORDUSU



*Qəhrəmanlıq tariximiz*

# Şəhidlik - əbədilik

*Sovet ideologiyası şəhidlik kəlməsinə dini yozum verməklə onu mahiyyətindən uzaqlaşdırmaq istəyirdi. Xalq digər mənəvi dəyərləri sırasında bu sözün ifadə etdiyi mahiyyəti də Vətən, torpaq, dövlət, dövlətçilik ifadələri kimi mənəvi ucalıqda yaşatdı...*

Şəhidliyin nə olduğu Azərbaycanda Ermənistan Azərbaycana qarşı elan etmədən müharibəyə başlayandan sonra daha əhatəli dərk edildi. Bilənlər bilirdi, uşaqlar da, yeniyetmələr də, gənclər də bildilər ki, şəhidlik Vətən naminə ölümə qənşər getməkdi. Şair Əli Səngərli yazmışdı: "Ölüm nədi, kül ələyim gözünə..."; şəhidlər ölümün gözlərinə kül ələyənlərdi, ölümü gözündən güllələyənlərdi...

Tarixi orta əsrlərlə səsləşən şəhidliyin mahiyyəti əqidəyə, amala, inama sədaqətdi. Kəfəni son nəfəs olan sədaqət. Tarixin müəyyən dövründən sonra sərhədlə əhatələnən torpaq - buna Vətən deyildi - şəhid-şəhid qorunub. Xilafətə qarşı mübarizəyə (əslində müharibəyə) başçılıq edən Babəkin yaşam fəlsəfəsi bütün dövrlərdə "ömür Vətən üçün yaşanılmalıdı" qənaətiylə tən olub. Bu yaşarı, bəşəri fəlsəfə bütün türk xalqlarının düşüncəsinə hopub.

1028-1072-ci illərdə yaşamış Səlçuq sultanı Alparslan Malazgird zəfəri ərəfəsində ağ paltar geyinərək sərkərdələrinə deyib: "Bu, mənim şəhidlik kəfənimdir. Savaş meydanında ölsəm, məni bu paltarda dəfn edərsiniz..."...

Türkiyənin istiqlal savaşından əvvəl Şükrü paşa bir vəsiyyət yazıb: "Düşmən sərhədlərimizi keçdikdən sonra ölsəm məni dəfn etməyin, qoy ətimi itlər yesin. Düşmən sərhədlərimizi keçməmiş ölsəm sabunum, kəfənim çantamdadır"...

Məkan baxımından Səlçuq sultanının sərkərdələrinə tapşırığı uzaqda deyilsə də, Şükrü paşanın vəsiyyəti uzaqda yazılsa da, ruh baxımından Azərbaycanda olmuş kimi dərk edilir...

Şəhidliyiylə tarix yazanlar tarixdə əbədiyyən qalır. Babəklər kimi, Alparslanlar kimi, Şükrü paşalar kimi,... Cavad xanlar kimi,... Rasim İbrahimovlar, Etibar İsmayılovlar, Mübariz İbrahimovlar,... kimi...




Azərbaycanda müharibə başladı. İlk şəhidlərimiz Əli ilə Bəxtiyar oldu - iki uşaq, sabahlarımızın iki əsgəri, bəlkə də iki qəhrəmanı...

Azərbaycanda müharibə başladı. Yerli müdafiə batalyonları döyüşürdü, polis işçiləri döyüşürdü, əhali döyüşürdü. Döyüşənlər "Torpaq, uğrunda ölən varsa, Vətəndi" kəlamının şəhadətiylə döyüşürdü. Hər döyüşü son döyüş bilib döyüşürdü. Döyüşlərdə minlərlə əsgər, zabit, mülki vətəndaş şəhid oldu.

Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü saxlanılmaqla həlli istiqamətində aparılan danışıqlar nəticə verməsə, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin əmri ilə Azərbaycan Ordusu torpaqlarımızı işğaldan döyüşlə azad edəcək. Bu inam ordu quruculuğu istiqamətində aparılan irimiqyaslı islahatların möhtəşəm nəticələrinə inamdı, bu inam ordunun gücünə, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının səviyyəsinə olan inamdı, bu inam milli-xəlqi ruhun yaşarılığına inamdı, bu inam şəhidliyin müqəddəsliyinə, müqəddəsliyin əbədiliyinə inamdı. Bu inam şəhidlərə ehtiramdı. Bu ehtiram bütövlükdə cəmiyyəti əhatə edir...

Şəhid atalarının dedikləri yaddaşlara ictimaiyyətin şəhidliyə münasibəti kimi köçür: "...mənim oğlum idi, xalqın oğlu oldu". Yəni şəhidlərin hər biri hamının əzizidi.

1992-ci ilin fevralın sonunda Füzuli rayonunda ezamiyyətdəydik. Mayor Rasim İbrahimov yerə-göyə sığmayan bir yanğıyla, bir təəssüflə, bir hiddətlə deməşdi ki, Qaradağlı kəndində camaat rəhmətə gedənlərini gündüz dəfn edə bilmir, camaat bir yerə toplaşan kimi düşmən atəş açır. Qətiyyətlə deyirəm ki, şəhid olacağıq, ancaq erməniliyi Azərbaycandan uzaqlaşdıracağıq, - deyən mayor Rasim İbrahimov şəhidliyi Vətənə sipər bilirdi. 1993-cü ilin yayında Füzulidə sonacan döyüşdü Rasim, son nəfəsinəcən döyüşdü. Və qumbarayla özünü də, onu əsir almaq istəyən erməniləri də həlak etdi - şəhid oldu. Ona Azərbaycanın Milli Qəhrəmanı adı verildi.

Mübariz İbrahimovun şəhidliyi təsdiqlədi ki, Azərbaycan hərbçisi həm situasiyaya görə şəhid olur, həm də sonda şəhid olacağını bilə-bilə döyüşə gedir, döyüşür. Belə şəhidlik Vətən üçün, dövlət üçün, dövlətçilik üçün ağ işıqdı. Şəhidliyin mahiyyətinin dərki bu işığın mahiyyəti deməkdi.

Ağakərim kişinin oğlu Mübarizin ata-anasına yazdığı son məktub yüz illər, min illər bundan sonra da ehtiramlarla xatırlanacaq. Bu məktub Vətənə sədaqətin etiraf sənədi oldu...

Mübariz son döyüşündə neçə düşmən öldürdü? - belə bir şəhidliyin mahiyyəti müqabilində bu suala cavab almağa heç kim o qədər də həvəsiməz. Mübariz İbrahimovun şəhidliyi həmin döyüşdə öldürülənlərdən dəfələrlə çox düşməni mənən məhv etdi. Bu şəhidlik Azərbaycan Ordusunda Mübarizləşmə təyini yaratdı; 2016-cı ilin aprelində hər əsgər Mübariz İbrahimov qətiyyətiylə döyüşdü. Lələtəpə, Bayraqtəpə fatehlərinin sırasında Mübarizlərin ruhunun da olduğuna necə inanmayasan?

Əlif Hacıyev xocalıları daha böyük faciələrdən xilas etmək üçün döyüşdü - şəhid oldu...

Etibar İsmayılov əsgər yoldaşlarını haqlamaqda olan tankın altına atıldı - düşmən tankını məhv etdi, özü şəhid oldu...

Müxtəlif məkanlarda müxtəlif situasiyalarda müxtəlif formalarda təzahür edən şəhidliklərin hamısının mahiyyəti eynidi: ömür Vətən üçündü, təki Vətən yaşasın...

Ruhi bağlılığımız heç zaman zəifləməyən, Azərbaycan əsgərinə xitabən deyirəm ki, şəhidlərimizin amalının, istəyinin, məqsədinin davamçısı olmaq sənin mənəvi borcundu. Dövlətə, dövlətçiliyə sədaqətini bu borcu necə yerinə yetirməyin müəyyənləşdirir. Sən uca ruhların arzuladığı əsgərsən, Azərbaycan əsgəri!..

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**



# "BOO-2019" yarışlarında iştirak edəcək hərbçilərimizin bir qismi Rusiya, Belarus və Özbəkistana yola düşüb

Ordu Oyunları-2019" yarışları çərçivəsində keçiriləcək "Tank biatlonu", "Səhra mətbəxi", "Snayper həddi" və "Hərbi-tibbi estafet" müsabiqələrində iştirak etmək üçün Azərbaycan hərbçiləri Rusiya, Belarus və Özbəkistana yola düşüblər.

Yarışlar avqustun 3-dən 17-dək keçiriləcək.



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, "Beynəlxalq

# Xəbərlər:
## hadisələr, faktlar

### Türkiyədə daha bir təhlükəli terrorçu məhv edilib



Türkiyənin təhlükəsizlik qüvvələri Şırnakdakı Cudi və Ağrı səmtində yerləşən Tendürek dağlarında uğurlu antiterror əməliyyatları keçirib.

Əməliyyatlar zamanı 8 terrorçu məhv edilib. Tendürek dağında zərərsizləşdirilən iki terrorçudan biri "Agir" ləqəbli Uğur Arslan olub. PKK-KCK terror təşkilatlarının aparıcı şəxslərindən olan U.Arslanın haqqında axtarış elan edilmişdi. Onun tutulması üçün 600 min lirə (təxminən 105 min ABŞ dolları) vəsait ayrılmışdı.

### Əfqanıstanda iki amerikalı hərbçi həlak olub



Əfqanıstanda "Taliban" silahlılarının hücumu nəticəsində ABŞ-ın bu ölkədəki qoşun kontingentində xidmət edən iki əsgər həlak olub. Məlumatı Birləşmiş Ştatların Əfqanıstandakı hərbi kontingenti yayıb. Lakin amerikalı hərbçilər əsgərlərin ölümü ilə bağlı detalları açıqlamayıblar.

Xəbərdə bildirilir ki, "Taliban" hərəkatının bu insidentlə əlaqədar bəyanatında iki deyil, dörd amerikalı əsgərin öldürüldüyü qeyd olunur. Silahlı hücumun Qəndəhar əyalətinin cənubundakı Şah Vəli Kot qəsəbəsində törədildiyi, daha iki amerikalı hərbçinin də yaralandığı vurğulanır.

NATO-nun Əfqanıstandakı qərargahında isə bu məlumatları dəqiqləşdirmək mümkün olmayıb.

### Somalidə 6 afrikalı sülhməramlı əsgər öldürülüb



Somalinin paytaxtı Moqadişoda Burundidən olan 6 afrikalı sülhməramlı əsgər öldürülüb. Hərbçilər Somalidəki Afrika Birləşmiş Kontingentində (AMISOM) xidmət edirmişlər.

Burundi ordusunun sözçüsü bildirib ki, əsgərlər paytaxt Moqadişonun Balad rayonunda "Əl-Şabaab" terrorçu qruplaşması tərəfindən qətlə yetiriliblər. Silahlı hücum nəticəsində yaralanan üç əsgər xəstəxanaya çatdırılıb, daha iki hərbçini isə terrorçular girov götürüblər.

"Əl-Şabaab" terrorçu qruplaşması iki gün əvvəl də bu ərazidə rayonun rəhbərlərini və daha 4 nəfəri qətlə yetirib. Həmin insident terrorçu kamikadzenin üzərindəki bombanı partlatması nəticəsində baş vermişdi.

Tərkibində 22 min hərbçi olan AMISOM bölgədə BMT və Afrika İttifaqının himayəsi altında yerləşdirilib. 2007-ci ildən fəaliyyət göstərən sülhməramlı hərbi kontingentin tərkibində Burundidən 5432, Uqandadan isə 6000 əsgər xidmət edir.

### Liviyada müxalifət qüvvələrinə qarşı hərbi əməliyyat keçirilir



Liviyanın Tripoli şəhərində milli hökumət qüvvələri müxalifət ordusunun komandanı general Xəlifə Həftərin qoşunlarına qarşı geniş hərbi əməliyyata başlayıb.

Liviya milli hökumətinin hərbi məsələlər üzrə nümayəndəsi Məhəmməd Qanuni müxalifət qüvvələrinə qarşı "Burkan Əl-Qədab" əməliyyatına başlanıldığını deyib. Milli hökumətin məlumatına görə, Xəlifə Həftər qoşunlarının mövqeləri hərbi hava qüvvələri tərəfindən də vurulub. Əməliyyat nəticəsində ölən və yaralananların sayı ilə bağlı dəqiq məlumat yoxdur.

Xatırladaq ki, aprel ayının 4-də general Xəlifə Həftər qoşunları Liviyanın böyük liman şəhəri olan Tripolini ələ keçirmək üçün milli hökumət ordusuna qarşı hərbi əməliyyat keçirmişdi və şəhər yaxınlığında mövqelərini möhkəmləndirməyi bacarmışdı.

**AZƏRTAC-ın materialları əsasında**

AZƏRBAYCAN ORDUSU

# Aprel şəhidinin anım mərasimi keçirildi




*Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzində şəhid polkovnik-leytenant Sənan Axundovun anım mərasimi keçirildi. Mərasimdə Müdafiə Nazirliyinin əməkdaşları, xüsusi təyinatlı hərbi təhsil müəssisəsinin kursantları, ictimaiyyət nümayəndələri və şəhidin ailə üzvləri iştirak etdilər.*

Əvvəlcə ümummilli lider Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş oğul və qızlarımızın, şəhid Sənan Axundovun xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

Mərasimdə çıxış edən Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin rəisi vəzifəsini icra edən mayor İlkin Qayıbov Aprel döyüşlərində erməni işğalçılarının cəbhədə törətdikləri təxribatlara Azərbaycan Ordusunun verdiyi layiqli cavabdan, hərbçilərimizin döyüş meydanında göstərdiyi şücaətdən və qazanılan qələbənin əhəmiyyətindən danışdı. Zabit bildirdi ki, bu döyüş düşmənə ordumuzun gücünü, əsgərlərimizin vətənpərvərliyini, Vətən eşqini, torpaq uğrunda şəhid olmaq sevdasını göstərdi. "Düşmən anladı ki, Azərbaycan Ordusu hər an onları məhv etməyə qadirdir. Aprel döyüşləri zamanı Sənan Axundovun göstərdiyi igidliklər hər bir azərbaycanlı üçün nümunədir. Məhz belə oğullar sayəsində işğal altında olan Azərbaycan torpaqlarının bir hissəsi düşmən tapdağından azad edildi."

Əməkdar mədəniyyət işçisi Zəminə Xınalı çıxışı zamanı qeyd etdi ki, illər ötsə belə şəhidlərimizə olan sonsuz ehtiram, sevgi heç zaman dəyişməyəcək, əksinə daha da artacaqdır. "Şəhidlər bizim üçün hər zaman əzizdir. Şəhidin ailəsi bizim ailəmizdir. Vətən torpaqlarının azadlığı uğrunda canlarını fəda etmiş müqəddəs şəhidlərimizin haqqında yazmaq, onları yad etmək hər birimizin borcudur", - deyən natiq şəhidlərimizin xatirəsinin bundan sonra da yüksəkdə tutulacağını vurğuladı.

Digər çıxış edənlər millət vəkilləri Məlahət Həsənova və Sona Əliyeva, şəhidin həyat yoldaşı Nəcibə Axundova və başqaları şəhidin ailəsinə göstərilən diqqət və qayğıya görə dövlət başçısına minnətdarlıq etdilər, Vətən uğrunda şəhid olanların heç vaxt unudulmadığını bildirdilər.



Sonda Zəminə Xınalının S.Axundovun xatirəsinə həsr edilən "Müqəddəs şəhid" kitabının təqdimatı da oldu. Tədbir xatirə şəklinin çəkilməsi ilə başa çatdı.

**Kursant**
**Elvin VƏTƏNDUST**

*Nümunəvi xidmət*

# Günəş sabah yeni şəfəqlərlə doğacaq

Müasir dövrdə avtomobil nəqliyyatı ordu infrastrukturunda xüsusi və mühüm yer tutur. Azərbaycan Ordusunun şəxsi heyətinin nəqliyyat tələbatının ödənilməsi, şəxsi heyətin daşınmalarının həyata keçirilməsi məhz avtomobil nəqliyyatının müntəzəm fəaliyyət göstərməsindən əhəmiyyətli dərəcədə asılıdır. Avtomobil nəqliyyatının ahəngdar işi isə təbii ki, Azərbaycan Ordusunun gündəlik fəaliyyətini etibarlı şəkildə təmin edir.

"N" hərbi hissəsində avtomobil nəqliyyatının işinin ahəngdarlığının təmin olunmasında zəhməti olan şəxslərdən biri sürücü müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Faiq Əliyev ilə tanışlığımız səngərə səfər çərçivəsində baş tutdu. Tanışlıqdan sonra başlanan söhbət o qədər maraqlı alındı ki, kələ-kötür, ətrafı düzənlik sahələrdən ibarət uzun yolu nə vaxt qət etdiyimizi hiss etmədim. Öyrənirəm ki, Gəncə şəhərində dünyaya göz açan hərbi qulluqçu altı ildir ki, bu hərbi hissədə sürücü kimi fəaliyyət göstərir.

Söhbət zamanı sürücü F.Əliyev bildirdi ki, hərbi hissədə sürücü kimi fəaliyyətə başlayan bütün sürücülərin nizam-intizamı, təhkim olunan avtomobil texnikasının quruluşu və istismarı haqqında bilikləri, həmçinin yol hərəkəti qaydaları üzrə nəzəri bilikləri, avtomobilə texniki qulluq göstərilməsi, eləcə də sürücülük üzrə praktiki bilik və bacarıqları yoxlanılır.

Hərbi qulluqçu Faiq Əliyev qeyd etdi ki, hər sürücülük vəsiqəsi olan şəxsi sürücü hesab etmək olmaz. "Hər bir sürücü ilk növbədə avtomobili daim saz vəziyyətdə saxlamalıdır. Eyni zamanda, sürücü mütləq şəkildə idarə etdiyi avtomobilin, mexanizm və cihazlarının təyinatını, quruluşunu, işləmə prinsipini, avtomobillərin yol hərəkəti və texniki istismarı qaydasını, hərəkətin təhlükəsizliyinin əsaslarını, avtomobilin istismarı prosesində üzə çıxan nasazlıqların əlamətlərini, səbəblərini və təhlükəli nəticələrini, onların aşkar edilib düzəldilməsi üsullarını bilməlidir. Bundan sonra həmin sürücü peşəkarlıqdan danışa bilər".

"Hər kəsə məlumdur ki, çətin iqlim şəraitində nəqliyyat vasitələrinin təhlükəsiz hərəkətinin təmin olunmasında ən önəmli meyarlardan biri də onun şinlərinin normativ tələblərə uyğun olmasıdır", - deyə hərbi qulluqçu söhbətinə davam etdi. - Hər bir sürücü idarə etdiyi nəqliyyat vasitəsində rezin şinlərin istifadəsində məsuliyyətli olmalı, qarlı, buzlu hava şəraitində sürət həddini nəzarətdə saxlamalı, bir sözlə, mümkün olan bütün təhlükəsizlik tələblərinə əməl etməlidir. Eyni zamanda yağışlı, qarlı və tozlu hava şəraitində sürücünün yolu normal görə bilməsi üçün avtomobillərin qabaq şüşəsində şüşə siləcəkləri və şüşəyuyanlar nəzərdə tutulub ki, bu aqreqatlar da qeyd olunan hava şəraitində təhlükəsizlik baxımından əvəzolunmazdır. Azərbaycan Ordusunda xidmət edən bütün hərbi qulluqçular, xüsusilə sürücülər yaxşı bilirlər ki, təhlükəsizliyin təmin olunması üçün yollarda, xüsusilə təlim karvanlarında da çox diqqətli olmalı, onlara mane olan manevr və hərəkətlərdən çəkinməli, özlərinin rahat və fasiləsiz hərəkəti üçün şərait yaratmalıdırlar: "Mən sürücü olmaqla yanaşı, hərbi qulluqçu olduğumu da yaddan çıxarmıram. Bir əsgər kimi nümunəvi, intizamlı olmaqla yanaşı Vətən qarşısında borcumun məsuliyyətini də dərindən dərk edirəm".



Günəş qüruba yaxınlaşır. Faiq qeyri-ixtiyari başını qaldırıb qürub edən günəşə baxır. Onun ürəyindən nələr keçdiyini duyuram. Baxışlar deyirdi ki, bu gün qüruba enən günəş sabah yeni şəfəqlərlə, yeni həvəslə onun üzünə doğacaqdır. O, dərindən nəfəs aldı, özündən asılı olmayaraq, əllərini bircə anlıq ovuşdurdu, iti addımlarla bayaqdan onu gözləyən avtomobilə sarı getdi. Axı onun görülməsi vacib olan hələ çox işləri var...

**Mayor**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**C.CƏFƏROVUNDUR**

# Qoşulmama Hərəkatının Nazirlər Şurası Azərbaycanın ərazi bütövlüyünü bir daha dəstəkləyib

*Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin nümayəndə heyəti Qoşulmama Hərəkatına (QH) hazırda sədrlik edən Venesuela Bolivar Respublikasının Karakas şəhərində Hərəkatın Nazirlər Şurasının iclasında iştirak edib. İclas zamanı gündəlikdə yer alan digər məsələlərlə yanaşı, Qoşulmama Hərəkatının bu il oktyabrın 21-26-da Bakı şəhərində keçiriləcək 18-ci Zirvə Görüşünə hazırlıqla bağlı məsələlər müzakirə edilib.*

Xarici İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirin sonunda Qoşulmama Hərəkatının məqsəd və prinsipləri ilə əlaqəli beynəlxalq sülh, təhlükəsizlik və sosial-iqtisadi inkişafa dair bir çox məsələlərin əks olunduğu yekun sənəd qəbul olunub.

Qoşulmama Hərəkatının Nazirlər Şurasının Yekun sənədində Azərbaycan Respublikasının mövqeyini dəstəkləyən bənd öz əksini tapıb. Burada, BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş müvafiq qətnamələrə baxmayaraq, Ermənistan və Azərbaycan arasında münaqişənin həll edilməmiş qaldığı, beynəlxalq və regional sülh və təhlükəsizliyə təhdid yaratmaqda davam etdiyi nazirlər tərəfindən təsdiqlənir. Həmçinin sözügedən bənddə Qoşulmama Hərəkatına üzv ölkələrin nazirləri BMT Nizamnaməsində əks olunan gücdən istifadə etməmək prinsipinin vacibliyini bir daha təsdiqləyərək, tərəfləri münaqişənin Azərbaycan Respublikasının ərazi bütövlüyü, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində danışıqlar yolu ilə nizamlanması axtarışını davam etdirməyə çağırırlar.

2012-ci ildən etibarən Qoşulmama Hərəkatının qəbul etdiyi bütün sənədlərdə Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına birmənalı dəstək və Ermənistan-Azərbaycan münaqişəsinin məhz bu prinsiplər əsasında həllinə çağırış ifadə olunur.

Baş leytenant Maxsudov Əbdüləzim Duman oğluna, baş gizir Mahmudov Hüseyn Əliyusif oğluna, gizir Abdullayev Elman Elxan oğluna və gizir Abdurəhmanov Rəşad Eldar oğluna verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 536
Nüsxə 3950